**Nəcəfxanlı, Əli**. Azərbaycan Ordusunun gücünü göstərən tarixi hadisə - Horadiz Əməliyyatı / Ə. Nəcəfxanlı // Xalq qəzeti. - 2022. - 6 yanvar. - **№ 1**. - S. 4.

***Bu gün Birinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun ən uğurlu döyüşlərindən biri olan Horadiz əməliyyatından 28 il ötür. Bu əməliyyat o zaman güclü havadarları olan erməni işğalçılarına Azərbaycan əsgərinin sərt üzünü göstərmiş, bir neçə ay sonra atəşkəs haqqında Bişkek protokolunun imzalanmasına təsir edən başlıca səbəb olmuşdur. Həmin günlərdə Azərbaycan Ordusunun uğurlu döyüş taktikası nəticəsində Füzuli rayonunun Horadiz qəsəbəsi, daha 20 yaşayış məntəqəsi, habelə Cəbrayılın Cocuq Mərcanlı kəndi düşmən tapdağından azad olunub. Həmin ərazilərin beş aylıq işğalına son qoyulub. Əməliyyat zamanı düşmənin çoxlu sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilib, onlarca döyüş maşını, xeyli sayda silah-sursat qənimət kimi ələ keçirilib. Eyni zamanda, ermənilərin Beyləqana hücumunun qarşısı alınıb.***.

..1993-cü ilin aprel ayında Füzuli və Cəbrayıl rayonlarında ezamiyyətə yollanmışdım. Gündüzlər cəbhə xəttində, o cümlədən Horadiz qəsəbəsində televiziya üçün çəkilişlər aparır, hərbçilərlə görüşüb müsahibələr alırdıq, gecələrsə Füzuli rayon xəstəxanasının zirzəmisindəki sığınacaqda qalırdıq. Füzuli şəhərinə yaxın Məngələnata zirvəsinin ermənilərdən geri alınması camaatda müəyyən ruh yüksəkliyi yaratsa da, ümumən vəziyyət gərgin idi. Müharibədən əziyyət çəkən sakinlərin inamsız çıxışları indiki kimi yadımdadır. Deyirdilər ki, burada ölüm-dirim savaşı gedir, amma Bakıdakı başbilənlər orada hakimiyyət davası edirlər. Belə getsə, ermənilər bütün Qarabağı alacaqlar.

Nə yaxşı ki, ondan iki ay sonra xalqın təkidli tələbi ilə ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdı. Xalqımızda və ordumuzda qələbəyə qəti inam yarandı. Dahi şəxsiyyətin çağırışı ilə genişmiqyaslı səfərbərlik keçirildi, hərbi hissələr komplektləşdirildi. Təcavüzkarı cilovlamağa qadir döyüş qabiliyyətli ordu yaradan ümummilli liderin xeyir-duasından ruhlanan əsgər və zabitlərimiz uğurlu əks-hücum əməliyyatları keçirərək, qondarma “Qarabağ problemi”ni Ermənistanla Azərbaycan arasında qanlı müharibəyə çevirmiş düşmənə sarsıdıcı zərbələr endirdilər. Ağır itkilər verən düşmən çox keçmədən atəşkəs müqaviləsini imzalamağa məcbur oldu.

Tarixi Horadiz əməliyyatı 1993-cü ilin dekabrından 1994-cü il yanvarın 6-dək davam edib. Həmin vaxt döyüşlər daha bir neçə gün çəkib, Azərbaycan Silahlı Qüvvələri Füzuli və Cəbrayıl rayon mərkəzinin yaxınlığına qədər irəliləyiblər. Amma düşmənin bütün qüvvələrinin orada toplamasına və sərt hava şəraitinə görə əməliyyatlar dayandırılıb. Bütün bunlarla bərabər, Horadiz əməliyyatı 2016-cı ilin aprel döyüşlərinə qədərki dövrdə ordumuzun ən uğurlu əməliyyatı sayılır. Heydər Əliyevin komandanlığı altında baş tutan həmin əməliyyat hərb tariximizin ən şərəfli səhifələrindəndir. Horadizə Azərbaycan bayrağı sancılandan bir müddət sonra ümummilli lider özü də oraya gedərək igid döyüşçülərimizlə görüşüb. Əməliyyatda qəhrəmanlıq göstərən 8 hərbçi Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Əməliyyat komandiri, Horadiz qəsəbəsini işğalçılardan azad edən 702 saylı briqadanın komandiri, hazırda ehtiyatda olan polkovnik Şair Ramaldanovun briqadası yanvarın 5-də, bir gün ərzində qənimət olaraq 3 tank, 1 ədəd "Şturm-S", 6 ədəd top, 6 ədəd top qoşqusu, 10-a yaxın nəqliyyat vasitəsi, çoxlu sayda silah-sursat götürüb. Düşmən ağır itkilər verərək və cəsədlərini döyüş meydanında qoyaraq geri çəkilib.

O zaman kəşfiyyat bölüyünə komandirlik etmiş hərbçilərimizdən biri öz xatirələrində qeyd edir ki, düşmən ordusunun sıralarında böyük təşviş yaranmışdı. Ermənistanın ordu rəhbərliyi 70 kilometrədək qaçan əsgərlərinin qarşısını kəsməkdə çətinlik çəkirdi. Əməliyyatın nəticələri erməniləri əməlli-başlı sarsıtmışdı. Düşmənin istifadə etdiyi radio dalğalarının bütün tezliklərində erməni dilində təlaş dolu ”Horadis" və rus dilində “Qaradiz” sözləri eşidilirdi. Həmin danışıqlar və əsir alınmış düşmən döyüşçülərinin etirafları onların yaşadığı qorxunun çox ciddi olduğunu göstərirdi. Ermənilər üçün əsl kabus olan o gecə düşmən ölkənin prezidenti Levon Ter-Petrosyan özünün hərbi müşaviri general-leytenant Qurgen Dəlibaltyanı təcili olaraq döyüş bölgəsinə göndərmişdi. Onun bütün silahlı birləşmələrin komandirləri və könüllü dəstələrin rəhbərlərinin iştirakı ilə Füzulinin Ağdam döngəsində keçirdiyi geniş müşavirədə vəziyyətdən çıxış yolları müzakirə edilmişdi. Amma Azərbaycan Ordusunun ildırımsürətli əməliyyatları qoymadı ki, onlar nəsə edə bilsinlər. İgidlərimiz düşmənin möhkəmləndirilmiş mövqelərdən ibarət cəbhə xəttini yararaq, 30 kilometrə qədər irəliləməyə nail oldular.

Yuxarıda da qeyd etdiyimiz kimi, Horadiz şəhəri, o cümlədən Füzuli rayonunun 20 yaşayış məntəqəsi cəmi bir neçə ay erməni işğalı altında qalıb. Ancaq vəhşiliyin, talan və dağıntının miqyası qat-qat böyük olub. Qarabağ bölgəsində çalışmış mərhum həmkarımız Ziyəddin Sultanov deyirdi ki, Azərbaycan Ordusunun güclü əks-hücumu nəticəsində Horadiz azad olunarkən orada dağıdılmamış, yandırılmamış bina, körpü, yol qalmamışdı. Vəhşiləşmiş düşmən ana təbiətdən də qisas almışdı. Heç bir ehtiyac olmadan ağaclar kəsilmiş, bulaqlar, su kəmərləri dağıdılmışdı. Digər tərəfdən, öz murdar xislətinə sadiq qalan ermənilər ağlagəlməz yerlərdə çoxlu mina basdırmışdılar...

Prezident İlham Əliyev 2010-cu ildə Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüş zamanı Horadiz əməliyyatını da məmnuniyyətlə xatırlamış, cəbhə bölgələrində gedən uğurlu işlərdən razılığını bildirmişdir: “Füzuli rayonunun, demək olar, hamısı işğal altına düşmüşdü. Amma Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusunun qəhrəmanlığı nəticəsində Füzuli rayonunun müəyyən hissəsi işğalçılardan azad edilibdir. Burada bütün binalar dağıdılmışdı, yandırılmışdı. Bu binalar bərpa olundu. Minlərlə bina, sosial infrastruktur bərpa olundu. Horadiz qəsəbəsinə şəhər statusu verildi. Bu gün abadlıq işləri aparılır, gözəl müəssisələr, obyektlər açılır”.

Onu da qeyd edək ki, 1993-cü ilin dekabr ayında erməni silahlı dəstələri Füzuli şəhərinin şərqinə hərəkət etmək üçün cəhd göstərsələr də, görünməmiş müqavimət

ilə qarşılaşdı və geri çəkilməyə məcbur oldu. Bundan sonra Azərbaycan Ordusu üç istiqamətdə hücuma keçdi. Dekabrın 15-də Azərbaycan hərbçiləri tərəfindən dərhal 5 istiqamətdə hücum edildi – Füzuli, Xocavənd, Ağdam, Ağdərə və Kəlbəcər. Qarabağın şimal-şərqində hücum erməniləri Ağdərə rayonunun bir sıra yaşayış məntəqələrinidən geri çəkilməyə məcbur etdi. Azərbaycan hissələrinin Horadizə əsas zərbələri Qarabağın cənub-şərqində Beyləqan rayonundan gəlirdi. Döyüş çöl zonasına keçmişdi. Azərbaycan hissələri bu şəraitdə düşmənin müdafiəsini dağıtdılar, top atəşi və raket artilleriyasının altında Füzuli rayonunun daxilinə irəlləməyə başladılar. 1994-cü il yanvar ayının əvvəlində, hərbçilərimiz neçə-neçə kənd, qəsəbə və 40 kilometr Azərbaycan-İran sərhədi uzunluğunda ərazini ələ keçirə bildilər.

Sözügedən əməliyyatın nəticəsində Cəbrayılın Cocuq Mərcanlı kəndi azad olunsa da, Lələtəpə yüksəkliyinin ermənilərdə olması üzündən həmin kənddə məskunlaşmaq imkanı yox idi. Bu, yalnız 2016-cı ilin dördgünlük tarixi Aprel döyüşlərindən sonra mümkün olub. Hücum zamanı Azərbaycan Ordusu düşmənin strateji yüksəkliyə yaxınlaşmasına imkan yaradıb və ardınca ağır zərbələrlə erməni hərbi birliyini məhv edib. Beləliklə, Cocuq Mərcanlı kəndinin təhlükəsizliyi təmin olunub.

Ermənistanın hərbi təxribatlarına cavab olaraq Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı da strateji əhəmiyyətli Füzuli əməliyyatı uğurla nəticələnib. Döyüşlərin aktiv fazasında– oktyabrın 17-də rayonun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri şanlı ordumuz tərəfindən işğaldan azad edilib. Ümumilikdə, 62 yaşayış məntəqəsi qısa müddətdə azadlığına qovuşub. Füzuli əməliyyatı Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində cənub-şərq cəbhəsində baş vermiş ən əhəmiyyətli döyüşlərdən biri olub. Bu əməliyyat sayəsində, həmçinin Cəbrayıl və Xocavənd rayonunun bir sıra yaşayış məntəqələri geri alınıb.

Füzulinin azad edilməsi Azərbaycan Ordusuna əlavə mənəvi güc, döyüşlərə isə impuls verib. Silahlı Qüvvələrimiz bundan sonra daha böyük əzmkarlıqla xilaskarlıq missiyasını davam etdiriblər. Füzulidən üç gün sonra Zəngilan şəhəri azad edilib, ondan beş gün sonra Qubadlı alınıb, daha sonra ordumuz Laçın dəhlizinə çıxıb və beləliklə, müharibənin taleyi heç kəs üçün sirr olaraq qalmayıb.

Zəfərdən sonra Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə Füzuli rayonuna səfər edib. Dövlət başçısı Füzuli şəhərində Azərbaycan Bayrağını qaldırıb. Füzuli-Şuşa avtomobil yolunun – Zəfər yolunun təməli qoyulub. İndi o yol da artıq intensiv şəkildə işləyir, Füzuli Beynəlxalq Hava Limanı da rekord müddətə tikilərək istismara verilib. Bütün bunların kökündə isə heç şübhəsiz, Qələbəmizin proloqu sayılan Horadiz əməliyyatı da dayanır.

...Nəsillərin estafeti də uğurla davam edir. Tarixi Horadiz əməliyyatından 22 il sonra, 2016-cı ildə Lələtəpəni alan igid ardıcıllar ermənilərə Azərbaycan Ordusunun gücünü bir daha göstərdilər. Bu uğurlu əməliyyatın nəticəsində Cocuq Mərcanlıda məskunlaşma mümkün oldu. Oradan isə işğalda olan digər bölgələrə yol açıldı. 2020-ci ildə Zəfər yolu ilə irəliləyən igidlərimiz Qarabağı, demək olar ki, bütünlüklə düşməndən təmizlədilər. Birinci Qarabağ müharibəsində yüksək komandirlik məharəti göstərmiş, məlum əməliyyat zamanı Horadiz qəsəbəsinin ermənilərdən azad olunmasında yaxından iştirak etmiş 702 saylı briqadanın komandiri, "Azərbaycan Bayrağı" ordenini 2 dəfə alan yeganə hərbçi, Əliağa Şıxlinskidən sonra kitabları dünyanın hərbi akademiyalarında tədris olunan yeganə hərbiçimiz, polkovnik Şair Ramaldanov hazırda təqaüddə olsa da, Vətən müharibəsi zamanı və sonra onun televiziyalarda etdiyi peşəkar çıxışlarını hamımız yaxşı xatırlayırıq. Şair Ramaldanovdan estafeti qəbul edən bacısı oğlu, polkovnik-leytenant Babək Ramaldanov Füzuli ətrafında gedən döyüşlərdə igidliklə şəhid olub. Ölümündən sonra Azərbaycan Bayrağı ordeni, "Cəbrayılın azad olunmasına görə" və “Vətən uğrunda” medallarına layiq görülüb. Beləcə, Horadizin düşməndən təmizlənməsində hünər göstərmiş dayı Ramaldanovun komandirlik ənənələrini bacıoğlu Ramaldanov bacarıqla davam etdirib.

Xalqımızın ümummilli lideri, unudulmaz dahi şəxsiyyət Heydər Əliyevin ali sərkərdəlik məharəti ilə həyata keçirilmiş Horadiz əməliyyatı qəhrəmanlıq tariximizin qızılı hərflərlə yazılmış səhifəsi kimi hələ çox araşdırılacaq və çox öyrəniləcək.